# AHT Dialoq Platformasının 2016-cı il üzrə Hasilat Sənayesində Şəffaflıq İllik Hesabatına Rəyi

Sabit Bağırov,
AHT Platformasının üzvü

# Təqdimatın içindəkiləri

1. Rəyin hazırlanması hansı sənədlərə əsaslanır?
2. 2017-ci ildə Hasilat sənayesində şəffaflıq və hesabatlılıq sahəsində mühüm hadisələr;
3. HSŞ 2017-ci il prosesi: qeyd oluna bilən özəlliklər;
4. HSŞ 2016 Hesabatının hansı tələblərə riayət edilməsinə çalışılıb?
5. HSŞ 2016 Hesabatına dair OGP DP rəyi hansı prinsiplərə uyğun hazırlanıb?
6. Hesabatın bölmələrinə dair Rəydəki bəzi qeydlər;
7. Rəydəki tövsiyələr

# RƏYİN HAZIRLANMASI HANSI SƏNƏDLƏRƏ ƏSASLANIR?

- Konstitusiya Araşdırmalar Fondunun Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının monitorinqi layihəsi;
- Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı: 7. **Mədən sənayesində şəffaflığın artırılması;**
- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanında qeyd edilir ki, QHT-lərin iştirakı təmin edilməlidir

# Hasilat sənayesində şəffaflıq və hesabatlılıq sahəsində mühüm hadisələr

1. HSŞ İllik Hesabatının hazırlanmasına dair Hökumət Komissiyasının qərarı;
2. 18.05.2017 tarixdə Komissiyanın Qarşılıqlı Əməkdaşlıq iclası;
3. HSŞ proseslərində iştirak etmək niyyətində olan QHT-lərin akkreditasiyası;
4. Auditor tərəfindən hazırlanan HSŞ İllik Hesabatının ilkin variantının təhlili üçün İşçi Qrupun yaradılması (4 nəfər QHT nümayəndəsi: İnqilab Əhmədov, Azər Mehtiyev, İlham Şaban, Sabit Bağırov);
5. HSŞ İllik Hesabatının ilkin variantını İşçi Qrupun iclaslarında nəzərdən keçirilməsi və tövsiyələrin verilməsi;
6. HSŞ İllik Hesabatının Hökumət Komissiyasının 8 dekabr 2017-ci il iclasında təsdiq edilməsi (Şirkətlər Qrupu və QHT-lər Qrupunun iştirakı ilə);
7. HSŞ 2018-ci il üzrə Fəaliyyət Planının müzakirəsi

# HSŞ 2017: QEYD OLUNA BİLƏN ÖZƏLLİKLƏR

Öncəki illərdə tətbiq edilən MHŞT ilə müqaisədə:

1. Hökumət Komissiyasının daha mötəbər tərkibi və Komissiya üzvlərin əksər hallarda tam tərkibdə iclaslara qatılması;
2. Çoxtərəfli Qrupun ləğvi, lakin HSŞ-nin tətbiqi prosesinin başlanqıcdan QHT-lərin Komissiya iclaslarına dəvəti;
3. Komissiya iclaslarına beynəlxalq qurumların və səfirliklərin dəvəti;
4. QHT-lərin akkreditasiyası;
5. İşçi Qrupun daha mötəbər tərkibi;
6. QHT-lərə Komissiyanın iclaslarında məhdudiyyətsiz sual vermək və rəy söyləmək imkanları;
7. QHT-lər qərarların qəbul edilməsində səs vermək hüququna malik olmasalar da, proseslərə təsir etmək imkanları kifayət qədər genişdir.

# HSŞ 2016 Hesabatının hansı tələblərə riayət edilməsinə çalışılıb?

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanında qeyd edilir ki, hasilat sənayesində şəffaflıq və hesabatlılıq **standartlarının** tətbiqi aşağıda göstərilmiş beynəlxalq prinsiplər əsasında davam etdirilsin:

1. Təbii ehtiyatlardan əldə olunan gəlirlərin vətəndaşların rifahı və ölkənin milli maraqları naminə idarə olunması suveren dövlətlərin səlahiyyətlərinə aiddir;
2. Təbii ehtiyatlardan əldə olunan gəlirlərdən qənaətli istifadə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafa təkanverən mühüm vasitədir;
3. Dövlət orqanlarının fəaliyyətində, özəl sektorda və ictimai münasibətlərdə **şəffaflıq və hesabatlılıq standartları** təşviq edilməlidir;

# HSŞ 2016 Hesabatının hansı tələblərə riayət edilməsinə çalışılıb?

4. Dövlət hasilat sənayesindən əldə olunan gəlirlərin idarə olunması ilə bağlı vətəndaşlar qarşısında hesabat verməlidir;

5. Şəffaflığın artırılmasına müvafiq müqavilə və qanunlara əməl etməklə nail olunmalıdır;

6. Hasilat sənayesində fəaliyyət göstərən dövlət və özəl şirkətlər tərəfindən şəffaflığın, o cümlədən dövlətin maliyyə idarəetməsinin və hesabatlılığın gücləndirilməsi təmin olunmalıdır;

7. Ölkənin maliyyə şəffaflıq standartları hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərə şamil edilməlidir;

8. Bu sahədə şəffaflığın tətbiqində dövlət orqanları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, beynəlxalq təşkilatlar, maliyyə qurumları, investorlar və qeyri-hökumət təşkilatları da daxil olmaqla, bütün maraqlı tərəflərin iştirakı təmin edilməlidir.

# HSŞ 2016 Hesabatının hansı tələblərə riayət edilməsinə çalışılıb?

Normativ sənədin (məsələn Standartın) mövcud olmadığı şəraitdə HSŞ 2016 Hesabatının hazırlanmasına dair Hökumət Komissiyasının yanaşması:

***<u>HSŞ 2016 Hesabatı MHŞT (EİTİ) 2016-cı il Standartna maksimum dərəcədə cavab verməlidir!</u>***

# HSŞ 2016 Hesabatına dair OGP DP rəyi hansı prinsiplərə uyğun hazırlanıb?

1. Rəyin strukturu Hesabatın strukturuna uyğun olmalıdır. Bu rəyi nəzərdən keçirənlərə imkan verəcək ki, Hesabatın bölmələri barədə müəyyən təsəvvürləri yaransın;

2. Hesabatın hər bölməsinə dair qeydlər və tövsiyələr Rəyin müvafiq bölməsində əks etdirilsin və Rəyin sonunda təkrarlanmasın;

3. Rəyin tövsiyələr bölməsinə HSŞ Hesabatına və ümumiyyətlə HSŞ ölkədə inkişafına dair ümumi qeydlər öz əksini tapsın

# Hesabatın bölmələrinə dair Rəydəki bəzi qeydlər

Nəyə görə bəzi? Çünki bütün qeydləri bu təqdimata yerləşdirmək mümkünsüzdür.

Bəzi əsas qeydlər:

1. Struktur və məzmun baxımından 2016-cı il üzrə Hesabat MHŞT 2016 Standartının tələblərinə çox yaxındır;
2. Hesabatın bəzi bölmələrinin struktur baxımından təkmilləşdirilməsinə ehtiyac duyulur;
3. Hasilat sənayesi üzrə yeniliklərə dair altbölmədə «Neft və qaz sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi» barədə əsas məlumatların açıqlanması vacibdir;
4. Hasilat sənayesində lisenziyaların verilməsinə dair məlumatlar yenə də, öncəki illər üzrə Hesabatlarda olduğu kimi müvafiq mərhələlərin sadalanması ilə kifayətlənir. Müvafiq normativ sənədin qəbul edilməsi vacibdir.

# Hesabatın bölmələrinə dair Rəydəki bəzi qeydlər

5. HPBS-lərin Vahid lisenziyalar Reyestrində yer alması vacibdir;

6. Bütün HPBS-lərin açıqlanmasına nail olmaq gərəkir;

7. SOCAR-ın Nizamnamə Kapitalına böyük miqdarda bəsaitin keçirilməsi izah edilməlidir;

8. SOCAR-ın 2016-cı ildə gəlir və mənfəətinin artmasına baxmayaraq büdcəyə ödənişlərin azalması izah tələb edir;

9. SOCAR-la ortaq olan şirkətlərin paylarının bölgüsünə açıqlıq gətirilməsinə ehtiyac duyulur;

# Hesabatın bölmələrinə dair Rəydəki əsas qeydlər

10. Bəzi altbölmələrdə AzəriGold şirkətinə dair məlumatlar genişləndirilməlidir;

11. SOCAR-ın kreditləri üzrə daha geniş məlumatların məsələn kredit şərtləri) açıqlanması məqsədə uyğun olardı;

12. Boru kəmərləri üzrə tariflərin göstərilməsinə ehtiyac duyulur;

13. Məlumatların etibarlığı, tamlığı və əminlik altbölməsində şirkətlərin keçdikləri audit barədə məlumatların daxil edilməsinə ehtiyac duyulur;

14. SOCAR-ın sosial xərclərinə dair məlumatların genişləndirilməsi məqsədə uyğun sayılır;

15. Digər məlumatlar altbölməsində investisiyalara dair məlumatların genişləndirilməsinə ehtiyac duyulur.

# Hesabatın bölmələrinə dair Rəydəki əsas qeydlər

Rəydəki qeydlərin böyük əksəriyyəti gələcək illərdə hazırlanacaq Hesabatların daha geniş və dərin olmasına istiqamətlənib.

Qeydlər Hesabatın tələblərə uyğun olmaması barədə hər hansı şərhə əsas yaratmır, çünki tələblər hələ ki, müəyyən normativ sənədlə təsdiq edilməmiş qalır. Belə bir sənədin Azərbaycanda qəbul edilməsi vacibdir.

# HSŞ İLLİK HESABATINA PLATFORMANIN NƏTİCƏVİ RƏYİ

***“2016-cı il üzrə İllik Hesabat Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanında qoyulan tələblərə cavab verir. İllik Hesabat MHŞT Standartının da əsas tələblərinə cavab verir. Bununla yanaşı, İllik Hesabatların gələcək illərdə dərinləşməsi imkanları var və bu istiqamətdə müvafiq addımlar atılmalıdır”.***

# HSŞ İLLİK HESABATINA PLATFORMANIN TÖVSİYƏLƏRİ

1. HSŞ Hökumət Komissiyası, Şirkətlər Qrupu və Vətəndaş Cəmiyyəti Təmsilçiləri Qrupu arasında HSŞ tətbiqinə dair Anlaşma Memorandumu imzalanması məsələsi nəzərdən keçirilməli və məqsədə uyğun görünərsə bu Memorandumun 2018-ci ilin birinci yarısında imzalanması istiqamətində müvafiq addımlar atılmalıdır;

2. HSŞ tətbiqi üzrə Azərbaycan Standartı hazırlanmalıdır. Bu Standart MHŞT 2016-cı il Standartına maksimum yaxın olmalıdır;

3. Hasilat Sənayesində icazələrin verilməsi (HPBS-lərin hazırlanması və imzalanması) praktikası müvafiq normativ sənədlə (Qanun, Prezidentin Fərmanı və ya Nazirlər Kabinetinin Qərarı) təmin edilməlidir;

# HSŞ İLLİK HESABATINA PLATFORMANIN TÖVSİYƏLƏRİ

4. HS üzrə bütün HPBS-lərin tam şəkildə açıqlanması təmin edilməlidir;
5. HSŞ və benefisiar sahiblik: digər ölkələrin təcrübəsinin təhlili və təcrübələrdən Azərbaycanda istifadəyə dair təkliflərin hazırlanması təmin edilməlidir;
6. HSŞ hesabatlılığının elektron hökumət sisteminə inteqrasiyası yollarının araşdırılması və təkliflərin hazırlanması təmin edilməlidir;
7. “Qızıl qayda” üzrə digər ölkələrin təcrübələrinin təhlili və Azərbaycan üçün təkliflərin hazırlanması istiqamətində addımlar atılmalıdır;

# TƏŞƏKKÜRLƏR